

## Vəhşi heyvanların peyvəndlənməsinin faydaları

- **Vəhşi faunanın sağlamlığının** təmin olunması;
- **İnsanların və kənd təsərrüfatı heyvanlarının** quduzluğa yoluxma riskinin azaldılması;
- **“Vahid Sağlamlıq” konsepsiyasına** (ÜHST, ÜST və BMT ) töhfə verilməsi.



**!**

**Vəhşi heyvanların quduzluğa qarşı peyvəndlənməsi heyvan sağlamlığının təmin olunması və insanların təhlükəsizliyinə xidmət edir.**

**1003**
Çağrı mərkəzi


**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi**

info@afsa.gov.az
www.afsa.gov.az
+994 12 377 00 77




AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

AQTİ
AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ İNSTİTUTU

# VƏHŞİ HEYVANLARDA QUDUZLUQ XƏSTƏLİYİ VƏ PEYVƏNDLƏMƏ

## Quduzluq xəstəliyi



İstiqanlı heyvanlarda və insanlarda mərkəzi sinir sisteminin pozğunluqları ilə xarakterizə olunan təhlükəli zoonoz xəstəlikdir.

## Xəstəliyə məruzqalma

Heyvan və insanların quduz heyvan tərəfindən dişlənməsi və ya cırmaqlanması ilə

Törədicinin zədələnmiş dəri və ya selikli qişalara sirayət etməsi ilə



## Quduz heyvanlarda xəstəliyin əlamətləri

**İlk mərhələ**

- İnsanlardan qaçma və qaranlıq yerdə gizlənmə;
- İşığa, səsə, toxunmaya və s. həssaslıq (oyanma);
- Təngənəfəslik, göz bəbəyinin böyüməsi;
- Yeyilməyən əşyaların yeyilməsi (daş, şüşə, ağac və s.).

**İkinci mərhələ**

- İlk mərhələdəki əlamətlərin şiddətlənməsi;
- İnsanlara və başqa heyvanlara hücum;
- Uzaq məsafəyə qaçmağa cəhd olunması.

**Üçüncü mərhələ**

- Udlaq və qırtlaq əzələlərinin iflici;
- Yemi götürüb uda bilməmək;
- Çəpgözlük;
- Bədən əzələlərinin iflici və ölüm.

## Xəstəliyin yayılması

Quduzluğun yayılmasında xəstəliyə yoluxmuş vəhşi heyvanların (canavar, tülkü, çaqqal, çöl donuzu, çöl dovşanı, ayı, porsuq, yarasa və s.), həmçinin sahibsiz itlərin rolu böyükdür.



## Xəstəliyə qarşı peyvəndləmə

Vəhşi heyvanlar arasında quduzluğa qarşı peyvəndləmənin aparılması mühüm əhəmiyyət kəsb edir. Peyvəndləmə quduzluq əleyhinə vaksinlərdən istifadə olunmaqla həyata keçirilir.

**DİQQƏT!**

Ölkəmizdə vəhşi heyvanlar arasında quduzluq xəstəliyinə qarşı aldadıcı yem kimi spesifik iyi olan, **boz-qəhvəyi rəngli və briket formalı vaksinlərdən istifadə olunur.**



## Peyvəndləmənin həyata keçirilməsi

Vəhşi heyvanların quduzluq xəstəliyinə qarşı peyvəndlənməsi məqsədilə aldadıcı yemlər vəhşi heyvanların məskunlaşdığı ərazilərə səpilir.

**!**

Mütəxəssislər peyvəndləmənin uğurla nəticələnməsi üçün heyvanlardan ötrü nəzərdə tutulan spesifik iyli, boz və qəhvəyi rəngli yem briketlərinə toxunmamağa çağırır!”

